BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2012*

**UOT 343.140.02**

# PREZUMPSİYANIN ANLAYIŞI: CİNAYƏT-PROSESSUAL ASPEKTLƏRİ

**N.F.ƏLİYEV**
**Bakı Dövlət Universiteti**
***firuddin-aliyev@mail.ru***

*Nəzəriyyədə belə hesab olunur ki, cinayət-prosessual qanunvericilikdə təsbit olunmuş hüquqi prezumpsiyalar insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiə vasitəsi kimi çıxış edir. Bu rolun effektiv şəkildə həyata keçirilməsi üçün onun konkret anlayışının müəyyənləşdirilməsi zəruridir. Bu məqalədə hüquqi prezumpsiyaya cinayət-prosessual aspektdən anlayış verməyə cəhd olunur.*

**Açar sözlər:** prezumpsiya, preyudisiya məhkəmə qərarının həqiqiliyi prezumpsiyası

Cinayət prosesi elmində preyudisiya mahiyyətini tam mənada qavramaq və onun ayrı-ayrı məsələlərini məntiqi baxımdan izah etmək üçün prezumpsiyanın anlayışına nəzər yetirmək və bu məqsədlə onun ən əhəmiyyətli əlamətlərini müəyyənləşdirmək zəruri məsələlərdəndir.

Məhz bu baxımdan hüquqi prezumpsiyaların hüquq ədəbiyyatında ayrı-ayrı müəlliflər tərəfindən irəli sürülən anlayışlarını nəzərdən keçirmək və onun hamı tərəfindən qəbul oluna biləcək xüsusiyyətlərini aydınlaşdırmaq zəruridir.

Terminoloji baxımdan prezumpsiya latın sözu – *praesumptio* olub hərfi mənada *ehtimal, güman* kimi tərcümə olunur.

Prezumpsiya hüququn ən qədim institutlarından biridir. Müasir hüquqi prezumpsiyaların bir çoxu hələ Qədim Roma hüququnda institusional olaraq fəaliyyət göstərməyə başlamışdır. Belə ki, yazılı hüququn yaranması ilə onun insanlar tərəfindən bilinməsi məsələsi meydana gəlmişdir ki, bu da insanların qanunun məzmununu öyrənməsi və onların məsuliyyətinin müəyyənləşdirilməsi probleminin həllini zərurиləşdirmişdir. Məhz ona görə də, o vaxtkı qanunlar toplusu olan XII Cədvəl Qanunları mərkəzi meydanda asılırdı ki, bunu da, müasir dövrün qanununun dərc edilməsi ilə müqayisə etmək olar və insanların onun məzmununu bilməsi prezumpsiya olunurdu. Eyni zamanda müəyyən hallarda "təcrübəsiz şəxslərə güzəşt olunurdu"(9, 395-396). Bu güzəşt də, prezumpsiyanın təkzib olunmasını ifadə edirdi. Qanunun hamı

tərəfindən bilinməsi prezumpsiyası ilə yanaşı məhkəmə qərarının həqiqiliyi prezumpsiyası da, Qədim Roma hüququnda mövcud olmuşdur. Müəlliflərdən N.A. Çeçinaya görə qanuni qüvvəyə minmiş məhkəmə qərarının həqiqiliyi prezumpsiyasının əmələ gəlməsi Roma hüququnun inkşafı dövrünə təsadüf edir. Bu müddəa Ulpian tərəfindən “res judicata pro veritate accipitur” formulu ilə, tərcümədə “məhkəmə qərarı həqiqət hesab olunur” məzmununda ifadə olunurdu. Ulpianın bu formulu Yustinianın məcəllələşdirilməsində (D.1.5.25.) qəbul olundu və qanuni qüvvəyə minmiş məhkəmə qərarının həqiqiliyi prezumpsiyası qanuni prezumpsiya statusunu aldı (14, 193). A.S.Bereyozin deyilənə onu əlavə edir ki, N.A.Çeçinanın göstərdiyi formul ilə yanaşı hüquq ədəbiyyatında məhkəmə qərarının həqiqiliyi prezumpsiyasını ifadə edən formul “res judicata pro veritate accipitur” deyil, “res judicata pro veritate habetur” formasında ifadə olunur (3, 67). Lakin bu müəllif də təsdiqləyir ki, bu formul da məhkəmə qərarının həqiqiliyi prezumpsiyasını ifadə edirdi.

Məhz qeyd olunanlar əsasında hesab edirik ki, prezumpsiya barədə “nəzəri əsasları sovet dövründə işlənib hazırlanmış bir institut” kimi söhbət açmaq yanlış fikirdir. Ədəbiyyatda belə bir fikrə A.Y.Kiryanovun prezumpsiyanın anlayışı barədə məqaləsində rast gəlmək mümkündür (8, 33). Bu institutun məhz sovet dövründə işlənib hazırlandığını inkar edən digər bir məqam isə sovet dövründə bu məsələ barədə araşdırma aparan müəlliflərin əksəriyyətinin əsərlərində özlərindən əvvəlki dövrdə yaşamış xarici ölkə müəlliflərinə çoxsaylı istinadların olmasıdır.

Hüquqi prezumpsiyanın ədəbiyyatda hamı tərəfindən birmənalı olaraq qəbul olunan anlayışı və ya tərifi mövcud deyildir. Bu, özlüyündə həm də prezumpsiyanın ayrı-ayrı xüsusiyyətləri, onun mahiyyəti barədə müəlliflər arasındakı fikir ayrılığının olmasının göstəricisidir. Prezumpsiyanın anlayışına fərqli yanaşmaların olmasını xüsusi ədəbiyyatın araşdırılması təsdiqləyir. Belə ki, prezumpsiyanın hüquq ədəbiyyatındakı anlayışlarını ətraflı olaraq nəzərdən keçirək.

Ədəbiyyatda prezumpsiyanın dar və geniş; dinamik və statik; fəlsəfi və hüquqi; hüquq norması və hüquqi texnikanın üsulu kimi izahatları mövcuddur. Hüquqi prezumpsiyanın dar və geniş mənada izahı D.M.Şyokin tərəfindən irəli sürülmüşdür. Müəllifin fikrincə, dar mənada hüquqi prezumpsiya dedikdə, qanunvericilikdə birbaşa və ya dolayı şəkildə təsbit olunmuş və hüquqi tənzimetmə məqsədini daşıyan, bir hüquqi faktın mövcudluğu ilə digər hüquqi faktın mövcud olub-olmaması güman olunan, ehtimal təbiətə malik məcburi xarakterli müddəadır. Geniş mənada prezumpsiya qanunvericilikdə hüquqi tənzimetmə məqsədinə yönəlmiş, hüquq və vəzifələrin yaranması, dəyişməsi və xitamı üçün faktiki və hüquqi əsasların mövcud olub-olmaması barədə birbaşa və ya dolayı şəkildə ifadə olunmuş, ehtimal təbiətə malik olan məcburi müddəadır (15).

Dinamik mənada prezumpsiya dedikdə isə, səlahiyyətli dövlət orqanları və vəzifəli şəxslərin prezumpsiya olunan faktı müəyyən olunmuş kimi qəbul

etmək vəzifəsi başa düşülür. Statik mənada prezumpsiya ictimai münasibətlər sahəsində hadisələrin müəyyən qaydası adi, normal hesab olunduğu üçün sübut olunması tələb olunmayan, hüquq normasında birbaşa və dolayı formada ifadə olunmuş ehtimal kimi başa düşülür (7, 24).

Hüquqi prezumpsiyanın hüquq norması və hüquqi texnikanın üsulu kimi də izahatı mövcuddur (7, 8). Hüquqi prezumpsiya hüquq normalarında ifadə olunduğu üçün onu hüquq normasından və onun əsaslandırılmasından fərqləndirmək lazım gəlir. Hesab edirik ki, bu barədə K.B.Kalinovski tərəfindən prezumpsiyanın hüquq normasının əsaslandırılmasından fərqləndirilməsi barədə qeyd etdiklərini tam mənada uğurlu hesab etmək olar (5, 60-62). Müəllifin fikrincə, ilk öncə prezumpsiya məhz hüquqi faktın özünün müəyyənləşdirilməsi vasitəsidir. İkincisi, prezumpsiya hüquqi faktın digər bir halın əsasında müəyyənləşdirilməsini ehtimal edir. Ona görə də prezumpsiya - normada həmişə iki fakt – "A" faktı - əsas fakt, məntiqi mühakimə və "B" faktı – prezumpsiya olunan fakt, məntiqi nəticədən ibarətdir. Prezumpsiyanın qaydası belə formada ifadə olunur: Əgər "A" faktı (hipoteza) müəyyənləşdirilmişdirsə, əksi sübut olunmayana qədər "B" faktının mövcudluğu güman olunur (dispozisiya). Əgər ki, "B" faktı tanınmasa, belə bir qərar əsassız hesab olunacaqdır (sanksiya). Üçüncüsü, prezumpsiyanı digər hüquq normasından və hüquq normasının əsaslandırılmasından fərqləndirən əsas cəhət ondan ibarətdir ki, burada tətbiq olunan normanın hipotezasında "B" faktı qeyd olunmuşdur və başqa sözlə, məhz "B" faktı hüquqi fakt kimi sübut olunmalıdır.

Ədəbiyyatda prezumpsiyanın fəlsəfi və hüquqi baxımdan verilən anlayışları da vardır (13). Hüquqi prezumpsiyanı fəlsəfi mənada izah edən müəlliflərdən biri də V.K.Babayevdir. Prezumpsiyanın fəlsəfi aspektdə izahı çərçivəsində bu anlayışın a) məntiqi təbiəti, yəni onun ehtimal xarakterli olması; b) prezumpsiya olunan faktla müəyyən olunmuş fakt arasındakı əlaqənin olması; c) yalnız müəyyən növ prezumpsiyalara deyil, bütün növ prezumpsiyalara xas olan xüsusiyyətlər və nəhayət d) orada prezumpsiyanın hüquqi xarakteri ifadə olunmasının zəruriliyi qeyd olunur. Eyni zamanda müəllif tərəfindən induktiv metodun tam olmayan növü prezumpsiyanın məntiqi əsası hesab olunur. Məhz bu əlamətlər əsasında V.K.Babayev hüquqi prezumpsiyaya belə bir anlayış verir: hüquqi prezumpsiya dedikdə, faktların olub-olmaması barədə hüquq normasında təsbit olunmuş həmin faktlar və mövcud olan faktlar arasındakı əlaqəyə əsaslanaraq keçmiş təcrübə ilə təsdiqlənmiş ehtimal başa düşülür (2, 14). Yeri gəlmişkən onu da qeyd edək ki, ədəbiyyatda prezumpsiyanın induksiya metodu əsasında yarandığı fikri ilə yanaşı onun deduksiya metodu əsasında yarana biləcəyini iddia edən müəlliflər də vardır (11, 68). Müəlliflərdən İ.L.Petruxin şəxsin müəyyən yaş həddinə çatmaması ilə onun ictimai təhlükəli əməllərinin mahiyyətini dərk etməməsi və davranışına nəzarət edə bilməməsinin prezumpsiya olunmasını misal gətirərək iddia edir ki, induksiya metodu prezumpsiyanın formalaşmasında həlledici rol oy-

nasa da, onun formalaşması prosesində deduksiyanın mövcud olmasını inkar etmək mümkün deyildir (12, 343).

Hüquqi prezumpsiyaların deyil, sadəcə prezumpsiyanın fəlsəfi baxımdan anlayışı verilərkən onun fəlsəfi mahiyyətindən çıxış olunur. Fəlsəfi mənada prezumpsiya cəmiyyətin hüquq düşüncəsinin xüsusiyyətlərini göstərən əhəmiyyətli faktordur. Hətta prezumpsiya bu və ya digər dünyagörüşü tipinin, dünyaya baxışın, ideya seçiminin prinsipial elementidir. Prezumpsiyalar cəmiyyət, "kollektiv düşüncə", "kollektiv müşahidə" tərəfindən yaradılır və onlar intersubyektivdirlər. Başqa sözlə, prezumpsiyalar sistemi dünyanın bu və ya digər mənzərəsini müəyyənləşdirir. Fəlsəfədə əksi sübut olunmayana qədər həqiqət kimi qəbul olunan faktların (hadisələrin, halların, vəziyyətin) mövcudluğu barədə fərziyyə ümumilikdə "prezumsiya" kateqoriyası ilə ifadə olunur. Cəmiyyətin və dövlətin təbii sosial-siyasi strukturunun ifadə olunması nəticəsində formalaşan hüquq institutlarını kökündən yenidən qurmadan mövcud prezumpsiyalar sistemini dəyişdirmək mümkün deyil (4, 218). Son fikrə müəyyən əlavələr edib ümumilikdə prezumpsiyanın fəlsəfədə xarakteristikası barədə qeyd olunanlarla razılaşmaq olar. Burada əlavəmiz ondan ibarətdir ki, heç də hüquq institutlarının kökündən yenidən qurulması mütləq olaraq mövcud prezumpsiyalar sisteminin dəyişdirilməsi ilə nəticələnəcəyi qənaətini yaratmamalıdır. Hüquq institutlarının kökündən yenidən qurulduğu şəraitdə də, cəmiyyətdə formalaşmış prezumpsiyalar sistemi qalmaqda davam edə bilər. Buna bariz nümunə kimi bir çox post sovet ölkələrinin hələ də, sovet hüquq sistemi çərçivəsində formalaşan prezumpsiyalardan azad ola bilməməsini göstərmək olar.

Prezumpsiyanın fəlsəfi əsası predmet və halların ümumi qarşılıqlı əlaqəsi və həyat proseslərinin təkrarlanması ilə izah olunur. Müvafiq olaraq hüquqi prezumpsiyaların fəlsəfi əsası determinizm prinsipi hesab olunur.

Müəlliflərdən A.V.Kardaneç qeyd edir ki, prezumpsiyanın mümkünlüyü səbəb-nəticə əlaqəsinə əsaslanır (6, 33). Burada nəticənin hasil olmasının əsas qaydası müəyyənləşdirilməsi zəruri olan faktla əvvəllər uzun müddət ərzində mötəbər şəkildə müəyyənləşdirilmiş eynicinsli faktlar arasındakı səbəb-güman (ehtimal) olunan əlaqədir. Preyudisiyanın da, səbəb-nəticə əlaqəsinə əsaslandığını bildirən müəllif, daha sonra qeyd edir ki, preyudisiyanın realizə olunma mexanizmi prezumpsiyaya nisbətən fərqlidir. Prezumpsiyadan fərqli olaraq preyudisyanın əsasını əvvəlki hüquqi praktikanın ümumiləşdirilməsi deyil, insan təcrübəsi tərəfindən müəyyən edilmiş konkret hüquqi qərar təşkil edir və preyudisiya əvvəlki hüquqi qərarın məzmunu və nəticələrinin ümumiləşdirilməsi kimi çıxış edir.

Ədəbiyyatda prezumpsiyanın anlayışının hüquqi baxımdan verilməsinin əsas tərəfdarlarından olan N.N.Çukanov qeyd edir ki, prezumpsiya hüquqi kateqoriya kimi ictimai münasibətlərin tənzimlənməsinin müstəqil vasitəsidir (13). Hüquqi prezumpsiya ilkin fakt olduqda səlahiyyətli subyektin hüquq-tətbiqi barədə qərarı ilə əksi müəyyənləşdirilməyənədək müəyyən (prezumsiya

olunan) faktın qəbul edilməsi bilavasitə hüquq normasında təsbit olunmuş hüquqi vəzifədir. Hüquqi prezumpsiya qanunvericilik tərəfindən formulə edilir və normativ göstəriş kimi qüvvədə olur. Bu və ya digər hüquqi prezumpsiyanın qəbul olunmasının zəruriliyi və əsaslılığı məsələsinin həllində əhəmiyyətli faktor prezumpsiya olunan faktın mümkünlük dərəcəsidir. Lakin faktiki prezumpsiyalardan fərqli olaraq baxılan kateqoriya hadisə və münasibətlərin adi, təbii qaydasını ifadə etməyə də bilər (məsələn, təqsirsizlik prezumpsiyası).

Göründüyü kimi, prezumpsiya konkret anlayış ilə bağlı deyil, hətta onun ayrı-ayrı elementləri barədə müəyyən istiqamət üzrə hamı tərəfindən qəbul olunan baxışlar belə yoxdur. Hesab edirik ki, prezumpsiya anlayışına ideal tərif vermək mümkün olmasa da, yuxarıda qeyd olunmuş yanaşmaları təhlil etməklə, onun spesifik əlamətlərini dəqiqləşdirmək mümkündür və məsələ barədə qərar qəbul etmək üçün bu zəruridir.

İlk növbədə, prezumpsiyanı onun terminoloji mənasından çıxış edərək ehtimal, güman kimi qəbul olunmasına nəzər yetirək. Hüquqi tənzimetmə mexanizmində prezumpsiyanın tənzimetmə predmetinə daxil olan münasibətlərin xarakteristikası bu anlayışı tam mənada ehtimal, güman kimi qiymətləndirməyə əsas vermir. Prezumpsiya anlayışı barədə tarixən müəlliflər arasında mövcud olan fikir ayrılıqları məhz prezumpsiyanın hüquqi tənzimetmə mexanizmində yerinə yetirdiyi funksiyasına görə yaranmışdır və bu fikir ayrılıqları indinin özündə də davam etməkdədir. Fikrimizi daha aydın şəkildə əsaslandırmaq üçün məsələni təqsirsizlik prezumpsiyası timsalında ətraflı olaraq nəzərdən keçirək.

Təqsirsizlik prezumpsiyası müasir dövrdə milli və beynəlxalq hüquqda mühakimə icraatının ən mühüm prinsiplərindən biridir və əsas insan hüquq və azadlıqlarının təminatı kimi nəzərdən keçirilir. Təqsirsizlik prezumpsiyasının mahiyyəti ondan ibarətdir ki, hər kəs əksi qanunla müəyyən olunmuş qaydada sübut olunana qədər məhz təqsirsiz hesab olunur. Şəxsin təqsirsizliyi prezumpsiyasını onun təqsirsiz ehtimal, güman olunması kimi nəzərdən keçirdikdə müəyyən hallarda onun sübutlarla təsdiqlənən təqsirsizliyini (məsələn, şəxsin təkzibedilməz alibisi olduqda) müəyyən mənada şübhə altında qoyuruq ki, bu hal təqsirsizlik prezumpsiyasının mahiyyət və təyinatına uyğun gəlmir. Bu halda şəxsin sübutlarla təsdiqlənən təqsirsizliyi həqiqətinin ehtimal, güman kimi nəzərdən keçirilməsi şəxsə qarşı ən azı ədalətsiz münasibət kimi qiymətləndirilməlidir. Şəxsin təqsirsizliyinin güman, ehtimal olunması onun faktiki olaraq təqsirli olması ilə əlaqədar ola bilər. Yəni ola bilər ki, şəxs həqiqətdə təqsirlidir, lakin biz ona qarşı ədalətsizliyin olmaması üçün onu təqsirsiz güman edirik ki, onun təqsiri qanuna uyğun formada sübut olunsun. Bu halda isə təqsirsizlik prezumpsiyası təqsirləndirilən şəxsin sanki üstünlüyü kimi görünə bilər. Bütün bu anlaşılmazlıqların səbəbi prezumpsiyanın məhz güman, ehtimal kimi qavranılması ilə əlaqədardır.

Qeyd olunanlar əsasında birmənalı olaraq hesab edirik ki, prezumpsiya ehtimal, güman kimi nəzərdən keçirilə bilməz.

Prezumpsiyanın adlandırılması barədə müəlliflər arasında prof. A.V.Smirnov və K.V.Kalinovskinin fikirləri ilə razılaşmaq olar. Müəlliflər "Cinayət prosesində prezumpsiyalar" məqaləsində ayrı-ayrı müəlliflərin fikirlərinin təhlili əsasında belə bir nəticəyə gəlirlər ki, prezumpsiya "şərti olaraq hüquqi fakt kimi qəbul olunma müddəası" kimi adlandırılmalıdır (10, 68-74). Başqa sözlə, hüquqi prezumpsiya hər hansı halın şərti olaraq hüquqi fakt kimi qəbul olunması müddasıdır.

## ƏDƏBIYYAT


1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. 1 sentyabr 2000-ci il.
2. Бабаев В.К. Презумпции в советском праве. Горки: Наука, 1974, 124 с.
3. Березин А.С. Преюдиции в отечественном уголовном процессе. Дис. канд. юрид. наук. Н.Новгород, 2006, 283 с.
4. Гусева С.В. Философское осмысление категории «презумпция» в структуре юриспруденции как гуманитарного научного знания // Вестник ПАГС 2009. №1 (18), с.217-222.
5. Калиновский К.Б. Отграничение правовых презумпций от обоснования юридических норм / Философия и право: Материалы Международной научно-практической конференции, 28 февраля 2006 года. СПб.: СПбГУП, 2006, с. 60-62.
6. Карданец А.В. Преюдиции в Российском праве. Дис. канд. юрид. наук. Н.Новгород-2002, 181 с.
7. Кузнецова О.А. Презумпции в гражданском праве. СПб.: 2004, 349 с.
8. Кирьянов А.Ю. Понятие, виды и значение презумпций в праве // Юридический аналитический журнал. 2006, №1, с. 33-39.
9. Самсонов А.П. Эволюция отношения к общеправовым презумпциям в современной правоприменительной политике // Вестник ТГУ, Гуманитарные науки. Право. Выпуск 6, 2009, с. 395-400.
10. Смирнов А.В., Калиновский К.Б. Презумпции в уголовном процессе // Российское правосудие. 2008. №4, с. 68-74.
11. Панько К. К. Презумпции в уголовном праве как прием законотворчества // Журнал российского права. 2005, №3, с. 65-70.
12. Петрухин И.Л. Презумпции и преюдиции в доказывании. В кн. Теория доказательств в советском уголовном процессе. М.: Наука, 1973, 736 с.
13. Правовые презумпции в административной деятельности милиции. www.mir-rabot.com /work/work_28127. html
14. Чечина Н.А. О презумпции истинности вступившего в законную силу судебного решения. Вопросы советского права. Ученые записки. Л.: ЛГУ, 1953, Вып. 4, с. 186-207.
15. Щекин Д.М. Юридические презумпции в налоговом праве. http://www.lib.ua-ru.net/diss/cont/103311.html

## ПОНЯТИЕ ПРЕЗУМПЦИИ: УГОЛОВНО-ПРОЦЕССУАЛЬНЫЕ АСПЕКТЫ

**Н.Ф.АЛИЕВ**

### РЕЗЮМЕ

В теории считается, что закрепленные уголовно-процессуальным законом правовые презумпции выступают средствами защиты прав и свобод человека и гражданина. Для эффективной реализации этого рода необходимо дать ему конкретное определение.

В настоящей статье исследуется сущность, правовые признаки и определение презумпции в уголовно-процессуальной науке.

**Ключевые слова:** презумпция, преюдиция, истинность судебного решения

## THE CONCEPT OF PRESUMPTION: CRIMINAL-PROCEDURAL ASPECTS

**N.F.ALIYEV**

### SUMMARY

The theory provides that, the legal presumptions fixed by the criminal procedure protrude as the means of protection of rights and freedoms of men and citizens. For effective realization of this roll it is necessary to give its precise definition. The article investigates the essence, legal signs and definition of presumption in the criminal-processual science.

**Key words:** presumption, prejudicial, the truth of judgement